# Fövqəladə Hallar Nazirliyi işçilərinin peşə bayramında

Təbii fəlakətlərin, texnogen xarakterli qəzaların və yanğınların qarşısının alınmasını, onların nəticələrinin aradan qaldırılmasını, belə hallarda xilasetmə və bərpa işləri üzrə müvafiq orqanların fəaliyyətinin vahid mərkəzdən idarə olunmasını, ölkədə mülki müdafiə işinin təşkilini və həyata keçirilməsini təmin etmək məqsədi ilə ölkə Prezidenti İlham Əliyev cənablarının 16 dekabr 2005-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi yaradılmışdır. Nazirlik fəaliyyətə başlamasından ötən 10 il ərzində şərəfli bir yol keçmişdir. Bu illər ərzində xeyli işlər görülmüşdür. Nazirliyin müvafiq qurumları üçün müasir tələblərə cavab verən binalar tikilmiş, avadanlıq və texnikalar alınmış, əməkdaşlar üçün lazımi iş şəraiti yaradılmışdır.



FHN-nin Şimal-Qərb Regional Mərkəzinin kollektivi peşə bayramlarını qeyd etmək üçün qəbələlilərin daimi ziyarətgahına çevrilmiş ümummilli lider Heydər Əliyevin abidəsi önünə gəlmiş və tər qərənfillər düzərək dahi şəxsiyyətin əziz xatirəsini yad etmişlər.



Tədbirdə rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri iştirak etmişlər.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar İ. Vəlizadənindir.**

# Dövlət Sosial Müdafiə Fondunun sədri Elman Mehdiyev Qəbələdə 4 rayonun sakinləri üçün qəbul keçirib

Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədri Elman Mehdiyev dekabrın 16-da Qəbələ şəhərindəki Mədəniyyət Mərkəzində məcburi dövlət sosial sığorta ödəyiciləri və pensiyaçılar üçün qəbul keçirib. Dövlət Sosial Müdafiə Fondu sədrinin qəbuluna gələn Qəbələ, Ağdaş, Göyçay və Ucar rayonlarının sakinləri əsasən pensiya təyinatı, əmək pensiyasının növünün dəyişdirilməsi, pensiyaların yenidən hesablanmasının bir sıra hüquqi aspektləri, o cümlədən başqa dövlətlərin ərazisində qazanılmış iş müddətlərinin, eləcə də müvafiq arxiv sənədlərinin olmaması səbəbindən keçmiş sovet dövründə işlədikləri müddətin əmək stajlarına daxil edilməməsi ilə bağlı müraciətlər ediblər. Görüş zamanı həmçinin, əmək pensiyasının üzərinə qulluq stajına görə əlavənin hesablanması, əyani təhsil müddətinin sosial sığorta stajına daxil edilməsi və digər məsələlərə dair çoxsaylı təklif və şikayətlər dinlənilib.



“Açıq qapı” şəraitində davam edən qəbulda fondun sədri Elman Mehdiyev hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, onların problemlərinin həlli ilə bağlı müvafiq tədbirlərin görülməsi üçün konkret tapşırıqlar verib. Qəbul zamanı fondun səlahiyyətinə aid olmayan məsələlərə dair vətəndaşlarla lazımi izahat işi aparılmaqla, aidiyyatı orqanlara müraciət edilməsi məsləhət bilinib.

Fondun məsul əməkdaşlarının, o cümlədən Qəbələ, Ağdaş, Göyçay və Ucar rayonlarının müvafiq şöbə müdirlərinin iştirakı ilə keçirilən qəbul zamanı ümumilikdə, 30-dək vətəndaşın müraciətinə baxılıb.

Qəbulda iştirak edən sakinlər Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən mütəmadi olaraq yerlərdə vətəndaşların qəbulunun təşkilindən razı qaldıqlarını bildirərək, pensiyaçılara göstərilən yüksək diqqət və qayğıya görə dövlət başçısına öz minnətdarlıqlarını ifadə ediblər.

Qəbula düşmək istəyənlərin rahatlığının təmin olunması məqsədilə vətəndaşlara əvvəlcədən qəbula yazılmaq imkanı yaradılmış, qəbulda iştirak edənlərin fondun müvafiq şöbələrinin inzibati binasının qarşısından xüsusi ayrılmış nəqliyyatla qəbulun keçirildiyi ünvana aparılıb-gətirilməsi təmin olunmuşdu.

**Aslan CƏLİLOV.**
**Foto İ. Vəlizadənindir.**

# Ulu öndərin xatirəsi yad edildi

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilmişdir.

Tədbir iştirakçıları Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan , daim xalqına arxa olan ulu öndər Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Tədbiri giriş sözü ilə açan mərkəzin direktoru Eyvaz Kazımov bildirdi ki, Azərbaycan xalqı bəşəriyyətə verdiyi tarixi şəxsiyyətləri ilə daim öyünüb, fəxr edib. Dünyada şöhrət tapmış dövlət xadimləri, siyasətçilər, müdrik şəxsiyyətlər haqqında söz düşəndə, ilk, növbədə ümummilli lider Heydər Əliyevin adı çəkilir. O, müstəqil Azərbaycanın qurucusu, memarı, milyonların ehtiramını qazanmış böyük dahidir.

Sonra tədris mərkəzinin direktor müavini Reyhan Məmmədova ümummilli liderin həyat və fəaliyyəti barədə şagirdlərə geniş məlumat verdi. O, qeyd etdi ki, ulu öndər Heydər Əliyevin həyata keçirdiyi islahatlar, Azərbaycanın iqtisadiyyatının güclənməsi istiqamətində görülən genişmiqyaslı quruculuq işləri xalqın gələcəyə olan inamını doğrultmaqla ölkəmizin dünya birliyinə açılan yoluna işıq saldı. Heydər Əliyev ömrü boyu xalq üçün, yurd üçün, Azərbaycan dövləti üçün çalışdı.

Tədris Mərkəzinin şagirdi Mehriban Nuralıbəyli öz çıxışında qeyd etdi ki, Azərbaycan xalqı dünyaya Heydər Əliyev kimi dahi bəxş etdiyi üçün qürurlanır. Ondan bizə çox yadigar qalıb. Ən dəyərlisi isə böyük Heydər Əliyev yoludur. Bu yolun davamçıları vətənə, xalqa sədaqəti məhz ondan öyrənirlər. Onun ideyaları yaşayır, qalib gəlir və xalqımızı yeni-yeni qələbələrə aparır.

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin bütün mühəndis-pedoqoji kollektivi və şagirdləri anım günü ərəfəsində rayonumuzda fəaliyyət göstərən Heydər Əliyev Mərkəzini ziyarət etmişlər. 12 dekabr anım günündə isə bütün kollektiv Heydər Əliyev parkına gedərək, ulu öndərin abidəsi önünə gül dəstələri qoyaraq ümummilli liderə öz dərin ehtiramlarını bir daha bildirdilər.

**Lalə Ağamirzəli,**
**peşə tədris mərkəzinin kitabxanaçısı.**

# Elm adamlarının hami-

Müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyev fəaliyyətinin bütün mərhələlərində elm və təhsilin inkişafına xüsusi qayğı və diqqətlə yanaşaraq, ilk növbədə, xalqın intellektual gələcəyini düşünmüşdür. Elmi-intellektual sahədə qazanılan nailiyyətləri dövlət quruculuğu prosesinin vacib şərti, etibarlı təminatı hesab edən ulu öndər milli təhsil sisteminin mütərəqqi prinsiplər əsasında inkişafı naminə bütün zəruri tədbirləri həyata keçirmişdir.

Ötən əsrin sonlarına doğru istiqlaliyyətini əldə edən Azərbaycan məhz Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə formalaşmış zəngin iqtisadi və elmi potensiala istinad etmişdir. 1991-1993-cü illərdə respublikamızda hökm sürən ümumi böhranlı vəziyyət iqtisadi tənəzzül prosesinin dərinləşməsi, ictimai-siyasi sabitliyin kövrək xarakter daşıması elm və təhsil sahəsində də əsaslı problemlərə gətirib çıxarmışdı. Azərbaycan elmi tənəzzül girdabında çırpınır, nüfuzlu alimlər, bütün həyatını təhsilə həsr etmiş adlı-sanlı müəllimlər çörək ardınca xaricə üz tutur, mənəvi depressiya elmi mühitə getdikcə daha çox hakim kəsilirdi. Bu böhranlı vəziyyəti yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə qayıdısından sonra aradan qaldırmaq, elm və təhsil sahəsində dövlət siyasətinin mühüm istiqamətlərini müəyyənləşdirmək mümkün olmuşdur.

Ulu öndər yeni ictimai-iqtisadi formasiyada Azərbaycan elmində, təhsilində yeniləşmənin vacibliyini önə çəkmiş, bu sahələrdə davamlı islahatlar həyata keçirmişdir. Heydər Əiyev cəmiyyətin mənəvi-ideoloji cəhətdən yetkinləşməsində, ictimai şüurun yeniləşməsində humanitar elmlərin, iqtisadi sistemin tənəzzüldən qurtulmasında, milli iqtisadi inkişaf modelinin düzgün müəyyənləşdirilməsində, elmlə istehsalın üzvü vəhdətinin təmin olunmasında fundamental elmlərin rolunu düzgün müəyyənləşdirmişdir.

**(Ardı 4-cü səhifədə).**